Təhsil naziri Misir Mərdanov "2008-ci il fənn olimpiadalarının Respublika turunun keçirilməsi haqqında" əmr imzalayıb. Əmrə əsasən fənn olimpiadalarının Respublika turu martın 16-dan 18-dək Bakı şəhərində keçiriləcək.

Olimpiadaların Azərbaycan dili və ədəbiyyat, Azərbaycan tarixi fənləri üzrə S.Pişəvəri adına Humanitar fənlər gimnaziyasında, riyaziyyat, fizika və informatika fənləri üzrə Fizika- riyaziyyat və informatika təmayüllü liseydə, kimya və biologiya fənləri üzrə isə Kimya-biologiya təmayüllü liseydə keçirilməsi qərara alınıb.

Yekun turun qeyd olunan fənlər üzrə olimpiada iştirakçılarının yerləşdiyi müəssisələrdə, yalnız informatika fənnindən isə Bakı Dövlət Universitetində keçirilməsi müəyyənləşdirilib.

Onu da qeyd edək ki, olimpiadaların bağlanışı martın 18-də hər fənn üzrə iştirakçıların yerləşdiyi müəssisələrdə təşkil ediləcək.